# Milli Məclisdə görüş

Martın 18-də Milli Məclisin İnsan hüquqları komitəsində İraq Nümayəndələr Şurasının İnsan haqları komitəsinin sədri Ərşad Salihi ilə görüş keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə görüşdə komitənin sədri Zahid Oruc, İctimai biliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa və Azərbaycan-İraq parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri İlham Məmmədov iştirak ediblər. Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri, qarşılıqlı səfərlərin əhəmiyyəti, regionda baş verən proseslər, Azərbaycan-İraq münasibətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 19 mart (№60).- S.6.